# İşğalçılar Azərbaycan torpaqlarından çıxmalıdırlar!

**_Oktyabr ayının birinci yarısında İstanbulda Mərmərə Qrupu Vəqfi tərəfindən ənənəvi olaraq hər il təşkil edilən Avrasiya İqtisadi Zirvəsinin 23-cü toplantısı COVID-19 pandemiyası səbəbindən onlayn qaydada yayımlandı. Zirvədə 47 ölkənin dövlət başçısı, senat və məclis başkanı, dövlət adamları və din xadimləri, aparıcı beynəlxalq təşkilatların nümayəndələri bir araya gəldilər. Müzakirəyə təqdim edilən mövzular hər il olduğu kimi aktuallığı, bəşəriyyət üçün əhəmiyyəti ilə seçilirdi._**



# Azərbaycanın haqq davası Avrasiya Zirvəsinin gündəmində








### 93 milyonluq güc

Zirvə öz işinə Azərbaycan Prezidenti cənab İlham Əliyevin təbrik mesajı ilə başladı. Mesajı toplantı iştirakçılarına Energetika naziri Pərviz Şahbazov təqdim etdi. Açılış mərasimində çıxış edən natiqlər bu gün qardaş Azərbaycanda yaşanan olaylara toxundular. Azərbaycanın haqq-ədalət davası apardığını, təcavüzkar Ermənistanın müharibə cinayətlərinə yol verdiyini, beynəlxalq hüququn norma və prinsiplərini heçə saydığını vurğulamaqla işğalçını birmənalı şəkildə qınadılar.

Mən də öz məruzəmdə qardaş Azərbaycanın 32 ildən bəri üzləşdiyi haqsızlığı, torpaqlarının işğal faktını dilə gətirərək söylədim ki, bu, təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının problemidir. Yalnız Dağlıq Qarabağ deyil, daha yeddi rayon düşmən işğalı altındadır. Xocalı qətliamı hələ də qəlbimizi sızladır. Ermənistan iki ay öncə beynəlxalq qanunları heçə sayaraq dünyanın gözü qarşısında Azərbaycanın Tovuz bölgəsinə təcavüz etmişdir. İş bununla da bitməmişdir. Sentyabrın 27-də Ermənistan bir daha təcavüzkar niyyətini ortaya qoyaraq, Azərbaycanın ərazi suverenliyinə qəsd etmişdir. Beynəlxalq hüquqa və insan haqlarına açıq-aşkar təhdid olan belə bir davranışın gərəkən cavabını Azərbaycan Ordusu vermişdir və həmin zəfər yürüşünü bu gün də davam etdirməkdədir. Türkiyə də ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" çağırışına vəfa örnəyi olaraq, öz qardaşının yanındadır və olmağa davam edəcəkdir.

Amerika, Avropa, Afrika, Pribaltika və Skandinaviya, Orta Asiya və Cənub-Şərqi Asiyayadək uzanan böyük bir coğrafiyanın təmsilçilərinin cəm olduğu bu toplantının verdiyi imkan və kürsüdən dünyaya səsləndim: Azərbaycan 93 milyondur! Türkiyə həmişə və hər sahədə onun yanındadır. Ermənistan beynəlxalq hüququn prinsip və tələblərini kobudcasına pozaraq, qonşusunun ərazi suverenliyinə qəsd etməklə həm də bir müharibə cinayəti işlətməkdədir. İşğalçı ölkə Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz geri çəkilməlidir.

İçində olduğumuz bu beynəlxalq platformanın verdiyi imkandan istifadə edərək, insanları hüquqa sayğıya, vicdanlı olmağa dəvət edirəm. İnanıram ki, yaşadığımız ağır günlər birgə səylərimizlə yaxın gələcəkdə bitəcəkdir. Əlbəttə, bəşəriyyət sabahı dünən olduğu kimi yaşaya bilməyəcəkdir. Koronavirusdan sonrakı dünya dünənki kimi deyil, daha qlobal, multilateral, ölkələr bir-birinə daha yaxın, daha məsuliyyətli və möhtac olacaqdır.

Qafqaz müsəlmanlarının şeyxülislamı Hacı Allahşükür Paşazadə zirvədəki çıxışında əxlaq, din, milli dəyər və bəşəri nöqteyi-nəzərdən terror və regional münaqişələri qınayarkən Azərbaycanın sahib olduğu multikultural dəyərləri nümunə kimi göstərdi.

Azərbaycan Energetika nazirinin müavini Elnur Soltanov da məruzəsində müasir və modern Azərbaycanın malik olduğu enerji ehtiyatlarının və onların nəqli siyasətinin çoxşaxəliliyi üzərində vurğu elədi.

SOCAR-ın fəaliyyətindən bəhs edən bu şirkətin rəsmisi Murat Lekompte investisiyaların son durumunu anlatdı.

### Qarabağ mövzusu

Azərbaycanlı oxucularımızın diqqətinə çatdırım ki, hər il bu toplantını keçirərkən belə bir müqəddəs arzumuzu ifadə edirdik – növbəti ildə bir araya gələrkən Allah bizə Qarabağın düşmən işğalından azad olunması sevincini yaşamağı və qardaşlarımızı təbrik etməyi nəsib etsin.

23-cü Avrasiya İqtisadi Zirvəsində Qarabağla ilgili xüsusi bir panel tərtib etdik. Bu sətirlərin müəllifi və vəqfimizin baş direktorunun müavini Engin Köklüçinarın moderatorluğu ilə keçirilən "Davam edən bir insanlıq dramı – Qarabağ" adlı iclasda AKP millət vəkili Şamil Ayrım, Orhan Erdem, Doç. Dr. Halil Özşavlı, CHP-dən millət vəkili Uğur Bayraktutan, İYİ Partiyasından millət vəkili Naci Cinisli və başqaları söz alaraq Azərbaycanın haqlı davasını gündəmə gətirdilər.

Toplantıya ABŞ-dan qatılan yazıçı-jurnalist Tomas Qolts sərhəd bölgələrində gəzib gördüklərini anlatmaqla Qarabağın əzəli Azərbaycan torpaqları olduğunu bir daha vurğuladı.

Fransanın Causeur yayın koordinatoru Gil Mihaely Ermənistanı haqsız və işğalçı tərəf kimi ifşa edən faktlarla zəngin bir çıxış etdi. Natiq iyulda Tovuza və sentyabrda Azərbaycana qarşı erməni terrorçularının həmlələrini qətiyyətlə pisləyərək Azərbaycanın öz davasında haqlı olduğunu bildirdi.

Yenə də Fransadan qatılan məşhur tarixçi-yazıçı Maxime Gauin Azərbaycanın öz ərazilərinin suverenliyi uğrunda zəruri müdafiə mövqeyi tutduğunu və bunun torpaqları işğala uğramış hər bir ölkə kimi, təbii haqqı olduğunu ifadə edən yaddaqalan bir çıxış etdi.

Tanınmış gürcü tarixçisi, Qafqaz Beynəlxalq Geosiyasi Araşdırmalar Mərkəzinin rəhbəri Quram Marxuliyanın Qarabağın əsrlər boyu Azərbaycana məxsus olduğunu tarixi faktlarla sübut edən çıxışı maraqla qarşılandı. Ermənistanın işğalçı bir dövlət olduğuna aid təkzibedilməz sənədlərə əsaslanan dəlillər irəli sürən Q.Marxuliya son aylarda Ermənistan tərəfindən sürəkli olaraq baş verən hərbi təcavüzün də məhz belə bir həqiqəti həzm edə bilməməsinin əyani təsdiqi olduğunu diqqətə çəkdi.

Azərbaycandan Milli Məclisin deputatı millət vəkili və Atatürk Mərkəzinin rəhbəri akademik Nizami Cəfərov isə qardaş ölkənin sahib olduğu yüksək mənəvi dəyərlərdən və bu haqlı davada yüksək qalibiyyət əzmindən bəhs etdi.

Nizami Cəfərov öz çıxışında bildirdi ki, "Prezidentimiz cənab İlham Əliyev Ermənistana dəfələrlə xəbərdarlıq etmişdi. Tovuz olaylarından sonra da əgər çirkin işlərindən əl çəkməzlərsə, çox ağır nəticələrə qatlanacaqları ilə bağlı qəti mesajlarını çatdırmışdı. Ancaq görünəni odur ki, bu, onlara dərs olmamışdı. Bu dəfə döyüş meydanında ermənilərə dərs veririk. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı aparır və həmin əməliyyat davam etməkdədir. Ordumuz yüksək mənəvi ruh var, on minlərlə könüllü cəbhəyə can atır. Bu bir tərəfdən torpaq sevgisindən qaynaqlanırsa, digər tərəfdən də xalqın öz dövlətinə olan inam və dəstəyinin bariz təcəssümüdür. Dağlıq Qarabağ problemi bizim milli-tarixi problemimizdir. Biz Ali Baş Komandanımızın rəhbərliyi altında tarixi ədaləti bərpa edib torpaqlarımıza qovuşacaq, suverenliyimizi təmin edəcəyik".

Avrasiya zirvələrinin uzun illərin təcrübəsinə əsaslanan ənənəsi var – müxtəlif ölkələrin sabiq dövlət başçılarını bir araya gətirib planetimizin ən qlobal, insanlıq naminə vacib problemlərini müzakirə edirik.

Budəfəki toplantımız da istisna deyildi: ikisi aktual olmaqla 16 dövlət başçısı qloballaşma, yeni güc mərkəzləri, koronavirus pandemiyasından sonrakı dünyanın güc, dəyər və idarəetmə prioritetləri barədə fikir mübadiləsi apardı, indiki mərhələdə sülh, həmrəylik və birgəyaşayış üçün vacib olan təşəbbüslərin əhəmiyyətini vurğuladı.

Dünya mediasının da yüksək marağına səbəb olan zirvədə digər vacib məsələlər də müzakirə predmeti oldu.

### Prezident İlham Əliyevə məktub

23-cü Avrasiya İqtisadi Zirvəsinin ən mühüm yekunlarından biri toplantının qapanma mərasimində həmının yekdil rəyi ilə iştirakçılar adından Azərbaycan Prezidenti cənab İlham Əliyevə məktub hazırlanması və həmin sənədin Yekun Bəyannaməsinə əlavə edilməsi oldu. Məktubu yüksək diqqətinizə təqdim edirəm:

**"Azərbaycan Prezidenti hörmətli İlham Əliyevə!**

**Möhtərəm Prezident!**

**Biz – Avrasiya İqtisadi Zirvəsinin iştirakçıları olaraq Qarabağda baş verən hadisələri əndişə ilə izləməkdəyik. Torpaqlarınızın bir parçası olan Qarabağda yaşanan işğal bir vəhşətdir! Qanunsuzluqdur! Zülmdür!**

**Ermənistan işğalçı ölkə kimi müharibə cinayəti, insanlıq cinayəti həyata keçirməkdədir. Ermənistanın dünyanın gözləri önündə beynəlxalq hüququ heçə sayaraq cinayət əməllərini davam etdirməsini qətiyyətlə pisləyirik. Öncə Qarabağın işğalı, sonra Xocalı soyqırımı, daha sonra Tovuz təcavüzü, indi də Azərbaycana qarşı açıq müharibə Ermənistanın tarixində qara bir ləkə olaraq qalacaqdır.**

**Siz zəruri müdafiə hüququnuzdan istifadə edirsiniz.**

**Birləşmiş Millətlər Təşkilatının qətnamələrinə görə, bir ölkənin torpağı işğal edildikdə, həmin torpaqları geri alması üçün verdiyi savaş zəruri müdafiədir.**

**Eyni zamanda, Siz insanlarınızın yaşam hüququnu qoruyursunuz.**

**Bir sözlə, Ermənistanın işğal etdiyi torpaqlardan dərhal geri çəkilməsinin vacibliyinə inanırıq. İnsan hüquqlarının pozulması davam etdikcə, savaşınız zəruri müdafiədir.**

**23-cü Avrasiya İqtisadi Zirvəsinin iştirakçıları olaraq Zati-alinizin ədalət axtarışlarına, haqq-ədalət istəyinə inanırıq!**

**Haqlı davanızda yanınızdayıq!**

**Ən dərin sayğılarla, 23-cü Avrasiya İqtisadi Zirvəsinin iştirakçıları".**

**Bu günlər bizim gözlərimiz və ürəyimiz bir ayrı cür sevinir.**

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan əsgərinin zəfər yürüşü davam etməkdədir. Üçrəngli bayrağımız işğaldan azad olunmuş şəhər və kəndlərdə dalğalanmaqdadır. Bütün dünya təcavüzkarın iç üzünü tanımaqda və onun rəzil məğlubiyyətinə şahid olmaqdadır.

Əminik ki, yaxın günlərdə hər bir cəbrayıllı, füzulili, zəngilanlı kimi, Qubadlıdan, Kəlbəcərdən, Laçın, Şuşa və Ağdamdan olan qardaşlarımızı da torpaqlarının murdar ermənilərin zülmündən azad olunması münasibətilə təbrik edəcəyik.

Qarabağ Azərbaycandır!

***Dr. Akkan SUVER,***
***Mərmərə Qrupu Vəqfinin rəhbəri***